# Azərbaycan kimi müttəfiqi itirmək ABŞ-yə ciddi problemlər yaradacaq

**"Son dövrlərdə Amerikanın bəzi rəsmilərinin Azərbaycana qarşı ittiham xarakterli çıxışları iki dövlət arasında münasibətlərdə gərginlik yaradıb. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan və Amerika arasında həmişə qarşılıqlı anlaşma, bir-birinin maraqlarına hörmətlə yanaşma, ədalət prinsipi özünü göstərib".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. Deputat qeyd edib ki, Azərbaycan birgünlük antiterror əməliyyatı keçirdikdən və bütün əraziləri üzərində suveren hüquqlarını bərpa etdikdən sonra ABŞ-nin bəzi rəsmi şəxsləri Azərbaycanın fəaliyyətinə kölgə salmaq, onu ittiham etmək niyyətinə düşüblər. Noyabrın 15-də ABŞ Senatında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilən dinləmələrdə dövlət katibinin köməkçisi Ceyms O'Brayn Azərbaycan-ABŞ münasibətlərinin bundan sonra müəyyən suallar doğuracağını bildirib. Əlbəttə, Azərbaycan bunu özünə qarşı ədalətsiz bir mövqe kimi qiymətləndirdi, eyni zamanda Senatın Ermənistanı müdafiə haqqında qəbul etdiyi qərarına da etirazını bildirdi. Otuz ilə yaxın müddətdə Ermənistan Azərbaycan torpaqlarının bir hissəsini işğalda saxlayıb, bu dövrdə xalqımıza qarşı genosid addımlar atıb, işğal etdiyi ərazilərdə bütün infrastrukturu, mənzil fondunu və sosial obyektləri dağıdıb, həmçinin torpaqlarımızın böyük hissəsini minalayıb. Hələ Vətən müharibəsindən sonrakı dövrdə 300-dən çox şəxs mina terrorunun qurbanına çevrilib.

Ermənistanın bu gün də Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan imtina etdiyini vurğulayan deputat bildirib ki, belə olan halda Amerikanın Azərbaycanı deyil, Ermənistanı müdafiə etməsi ölkəmizə qarşı qərəzli, düzgün olmayan siyasətin bariz nümunəsidir. "Bu kimi məsələlər noyabrın 21-də Milli Məclisin iclasında müzakirə edildi və ABŞ-nin Azərbaycana qarşı son dövrlər apardığı siyasətə etirazlar səsləndi. Bu siyasətin iki dövlət arasındakı münasibətləri heç də yaxşılaşdırmadığı vurğulandı və belə hallara son qoyulması tələb edildi. Aydın məsələdir ki, Azərbaycan öz suveren hüquqlarını qorumaq üçün beynəlxalq hüquqdan irəli gələn bütün imkanlardan istifadə edir. İndiki vəziyyətdə Amerikanın yüksəksəviyyəli siyasi şəxslərinin Azərbaycana səfərini qeyri-məqbul hesab edirik. Rəsmi Vaşinqton bugünkü vəziyyətə aydınlıq gətirməlidir. Azərbaycanın suveren hüquqlarının tapdalanmasına, ona saygısız yanaşılmasına son qoyulmalıdır. Azərbaycan sıradan bir dövlət deyil, regionun lider ölkəsidir, Şərqdə böyük nüfuza malikdir. Artıq beşinci ildir ki, Qoşulmama Hərəkatının sədridir", - deyə deputat əlavə edib.

A.Mirzəzadə vurğulayıb ki, Azərbaycan Vaşinqtonun bu regionda sülh, stabillik yaratmaq addımlarına həmişə hörmətlə yanaşıb və dəstək verib. Azərbaycan kimi müttəfiqi itirmək, əlbəttə ki, ABŞ-nin bu regionda apardığı siyasətə ciddi problemlər yaradacaq. Deputat hesab edir ki, yaranmış vəziyyətin normallaşması üçün ABŞ tərəfindən ciddi addımlar atılmalıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



Azərbaycan.- 2023.- 24 noyabr, № 256.- S.8.